# Məişət zorakılığı və siyasi mübarizə

written by Ilkin Huseynli İlkin Hüseynli

Məişət zorakılığına qarşı mübarizə *mədəni* yox, *siyasi* olmalıdır, çünki məişət zorakılığı məsələsi mədəni yox, siyasidir.[i] Məişət zorakılığının qarşısının alınması, məişət zorakılığı qurbanlarının dövlət tərəfindən qorunması və zorakı şəxslərin cəzalandırılmasını, yaxud məhdudlaşdırılmasını tələb etmək siyasi mübarizənin tərkib hissəsidir. Buna görə də məişət zorakılığı hallarının azalması üçün dövlətin tədbir görməli olduğunu iddia edən şəxslər öz iddialarını siyasi çərçivədə saxlamalı və mədəni müstəviyə keçməməli; eyni zamanda, bu tələb ilə çıxış edən şəxsləri cəmiyyət *mədəni inqilab istəyən şəxslər* kimi yox, *vətəndaş haqlarını tələb edən şəxslər* kimi görməlidir. Bu məqalədə iki məqsədim var: məişət zorakılığı məsələsinin siyasi olmasını izah etmək və aktivistlərin bu mövzudakı tələblərini məhz siyasi mübarizə çərçivəsində formalaşdırmalı olduqlarını iddia etmək.

**Məişət zorakılığı məsələsi siyasidir**

Məişət zorakılığı məsələsi niyə siyasidir? Qısa cavab: Azərbaycan dövləti digər bütün dövlətlər kimi öz vətəndaşlarını başqa dövlətlərin və şəxslərin zorakılığından qorumağı öz öhdəsinə götürüb. Yəni Azərbaycan dövləti bütün azərbaycanlıların canını və malını zorakılıqdan və zorakılıq təhdidindən qorumalıdır. Əgər dövlət bu öhdəliyini yerinə yetirə bilmirsə, dövlətdən həmin öhdəliyini yerinə yetirməsini tələb etmək vətəndaşların haqqıdır. Vətəndaşın dövlətdən nəsə tələb etməsi aktı isə siyasidir. Deməli, azərbaycanlıların Azərbaycan dövlətindən məişət zorakılığı ilə mübarizə aparmasını tələb etməsi aktı vətəndaş-dövlət münasibətləri çərçivəsində tənzimlənir və siyasidir. Uzun cavabı aşağıda verirəm.

Məişət zorakılığı zorakılığın bir növüdür: yad adam mənə qarşı

zorakılıq etsə, buna *zorakılıq* deyirik; ailə üzvüm, yaxud da partnyorum eyni şeyi etsə, buna *məişət zorakılığı* deyirik. Deməli, dövlətin zorakılığa məruz qalan vətəndaşlarına qarşı olan bütün öhdəlikləri məişət zorakılığı qurbanlarına da şamil edilməlidir. Dövlətin zorakılığa məruz qalan vətəndaşları qarşısında hansı öhdəlikləri var? Mən konkret olaraq Azərbaycan dövlətinin konstitusiyasında və qanunlarında öz üzərinə götürdüyü bütün öhdəlikləri sadalamaq və ya müzakirə etmək əvəzinə (qoy bunu hüquqşünaslar etsin) bütün dövlətlərin, o cümlədən də Azərbaycan dövlətinin minimal öhdəliyini izah edəcəyəm. Dövlət müəyyən bir ərazidə legitim zorakılığın özünə məxsus olduğunu iddia edən bir qurumdur. Başqa sözlə desək, dövlət həmin quruma deyilir ki, o, öz ərazisində özündən başqa heç bir qurumun və heç bir şəxsin zorakılıqdan istifadə etməsinə icazə vermir; istənilən dövlət deyir ki, *bu ərazidə zorakılığı məndən başqa heç kim edə bilməz*. Bu monopoliyanın əvəzində isə dövlət öz üzərinə bir öhdəlik götürür – bütün vətəndaşların malını və canını qorumaq. Bu öhdəliyi dövlət olduğu üçün Azərbaycan Respublikası da öz üzərinə götürür. Belə ki, bütün siyasi ideologiyalar dövlət deyiləndə minimim nəyin nəzərdə tutulduğu məsələsində də həmfikirdirlər. Dövlətin tarixi və nəzəri əsaslandırılması onun anarxiyanın qarşısını almaq üçün alət olmasıdır. İddia edilir ki, dövlət – yəni müəyyən bir ərazidə legitim zorakılığın özünə məxsus olduğunu iddia edən bir qurum olmasa, insanlar bir-birini öldürər, talayar və hər kəs hər an öldürülmək, malına və canına təcavüz edilmək qorxusu ilə yaşayar. Bu iddiaya görə, dövlət ona görə var ki, əmniyyəti – yəni insanların canını və mülkünü qoruyub, haqq pozuntularını sülh yolu ilə (ədliyyə) həll etsin. Başqa sözlə desək, dövlətin ordusu olmalıdır ki, özünün ərazisi hesab etdiyi yerdə insanları xarici hücumlardan qorusun; dövlətin polisi olmalıdır ki, asayişi təmin etsin və qaydalara riayət edən vətəndaşları qaydaları pozanlardan qorusun; nəhayət dövlətin məhkəmələri, yəni ədliyyə sistemi olmalıdır ki, yaranan problemləri, haqq pozuntularını əvvəlcədən müəyyən edilmiş prosedurlar vasitəsilə sülh yolu ilə həll etsin. Bu, minimal

dövlət anlayışıdır.

Əksər siyasi ideologiyalar bu minimal dövlət anlayışı ilə razılaşmayıb, dövlətin daha böyük olmasını, yəni öz üzərinə daha çox öhdəlik götürməsini tələb edir. Dünyada hazırda bu mənada minimal dövlət yoxdur. Bütün dövlətlər bu minimal öhdəliklərdən başqa çoxsaylı öhdəlikləri (təhsil, səhiyyə və s.) öz üzərinə götürüb. Azərbaycan dövləti də bu baxımdan istisna deyil. Azərbaycan sosial dövlətdir, məsələn, konstitusiyanın 16-cı maddəsində deyilir ki, “Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır (…) mədəniyyətin, təhsilin, səhiyyənin, elmin, incəsənətin inkişafına yardım göstərir, ölkənin təbiətini, xalqın tarixi, maddi və mənəvi irsini qoruyur.” Lakin mən Azərbaycan dövlətinin minimal öhdəliklərini müzakirə edəcəyəm, çünki bu minimal öhdəliklərin müzakirəsi belə məişət zorakılığı məsələsinin siyasi olduğunu göstərmək üçün kifayətdir.

Azərbaycan demokratik ölkə deyil və indi yazacağımı oxuyanda deyə bilərsiz ki, “guya dövlətin qanun vecinədir?” Amma səbr edib oxuyun, çünki bu yazını yazmaqda məqsədim hökuməti inandırıb ölkədə demokratiya qurmaq deyil və ya dövlətin öz öhdəliklərini yerinə yetirməsinə nail olmaq deyil; hədəf kütləm siz – adi vətəndaşlarsız, məqsədim isə “məişət zorakılığı məsələsi siyasi deyil” iddianızın səhv olduğunu göstərməkdir. Bu iddianız tərif etibarilə səhvdir, çünki məişət zorakılığı məsələsi təkcə demokratik ölkələrdə yox, istənilən ölkədə siyasidir, çünki vətəndaşı zorakılıqdan qorumaq istənilən dövlətin borcudur. Bəs siyasi qərarlar hansılardır? Ya da belə deyək: bizim həyatımıza təsir edən hansı məsələlər siyasidir? Əvvəlki yazımda mən *siyasi*yə belə tərif vermişdim: Dövlətin faktiki olaraq müdaxilə etdiyi, hüquqi olaraq müdaxilə edə biləcəyi və ya müdaxilə etmək haqqının olmalı olduğunu iddia etdiyi istənilən məsələ siyasidir. İndi isə məqsədim daha məhdud olduğundan tərifi də daraldıb onun bir hissəsini götürürəm: Dövlətin hüquqi olaraq

müdaxilə edə biləcəyi və ya müdaxilə etməli olduğunu iddia etdiyi istənilən məsələ siyasidir.

Azərbaycan dövləti məişət zorakılığı hallarına həm hüquqi olaraq müdaxilə edə bilər (məişət zorakılığı qurbanına sığınacaq verə, zorakı şəxsi isə cəzalandıra bilər və s.), həm də müdaxilə etməli olduğunu iddia edir. Deməli, əgər Azərbaycan dövləti öz üzərinə götürdüyü bu öhdəliyi yerinə yetirmirsə və vətəndaşlar da ondan bu öhdəliyi yerinə yetirməsini tələb edirsə, bu tələb siyasidir. Deməli, məişət zorakılığı məsələsi siyasidir. Məsələn, adam öldürmək məsələsi siyasidir, o mənada yox ki, bütün qətllər siyasi motivlidir; o mənada ki, qətl hadisələrinə dövlət müdaxilə etməyə borcludur. Tutaq ki, mən adam öldürsəm (cinayətin səbəbindən asılı olmayaraq) dövlət məni cəzalandırmalıdır; əgər cəzalandırmasa, onda vətəndaşlar dövlətdən məni cəzalandırmasını tələb edə bilər. Bu tələb siyasi tələb olacaq. Deməli, adam öldürmək məsələsi siyasidir. Məişət zorakılığı da bu mənada siyasidir. Məişət zorakılığı məsələsinə siyasi demək o mənaya gəlmir ki, dövlət kiminsə ərinə zəng edib arvadını döy! deyir, yaxud da ər öz arvadını başqa siyasi partiyaya səs verdiyi üçün döyür. Məişət zorakılığı məsələsinə siyasi demək o mənaya gəlir ki, dövlət məişət zorakılığı hallarında müdaxilə etməyə borcludur. Və əgər müdaxilə etmirsə, vətəndaşlar dövlətdən öz öhdəliyini yerinə yetirməsini tələb edə bilər. Bu tələb isə tərif etibarilə vətəndaş-dövlət münasibətləri çərçivəsindədir, deməli, siyasidir.

**Məişət zorakılığına qarşı mübarizə siyasi mübarizədir**

Azərbaycanda xüsusən də son illərdə aktivistlərin hesabına məişət zorakılığı məsələsi daha geniş müzakirə olunur. Lakin aktivistlər bəzən bu mübarizəni siyasi müstəvidən çıxardaraq mədəni müstəviyə daşıyırlar. Bu, səhvdir. Birincisi, məişət zorakılığı məsələsi siyasidir və onun aradan qaldırılması məqsədilə onun müzakirəsinin mədəni müstəviyə daşınmasına ehtiyac yoxdur. İkincisi, müzakirəni mədəni müstəviyə daşıyanda aktivistlərin inandırıcılığı aşağı düşür, çünki

azərbaycanlılar mühafizəkardırlar və onların mədəni dünya görüşünü dəyişdirmək olduqca çətindir. Aktivistin məqsədi nədir? Dövlətin məişət zorakılığına müdaxilə edib tədbirlər görməsi. Bu məqsədə nail olmaq üçün mədəni müstəvidə müzakirəyə ehtiyac yoxdur; çünki həm bu iki məsələ (siyasi və mədəni mübarizə) bir-birindən ayrıdır, həm də məqsədə nail olmaq üçün mədəni müstəvidə müzakirə taktiki olaraq yanlışdır. Aktivizmdə bizim məqsədimiz ilk növbədə zorakılığa məruz qalan şəxslərin vəziyyətini yaxşılaşdırmaq və ümumiyyətlə zorakılıq hallarının azaldılmasına nail olmaqdır. Bu məqsədə isə siyasi mübarizə ilə çatmaq mümkündür, həm də qismən daha asandır. Eyni məqsədə mədəni mübarizə ilə çatmaq çox uzundur və müşkül məsələdir; indiki vəziyyətdə isə sonuncu taktika məqsədə çatmağa əngəl yaradır.

Əxlaq və etika bəzən sinonim kimi işlənsə də son dövrlərdə siyasi fəlsəfədə bu ikisini ayırırlar. *Əxlaq* (bəzən *siyasi etika* da deyirlər) deyiləndə *insanlar başqalarından nə tələb edə, onları nəyə məcbur edə bilər* sualına verilən cavablar nəzərdə tutulur. Məsələn, bizim hansı tələblərimiz zorakılıq və ya zorakılıq təhdidi ilə icra edilə bilər? Canımızın və malımızın qorunması buna misaldır; belə ki, bizim canımızı və malımızı qorumaq məqsədilə dövlət (bəzən isə həm də özümüz) başqalarına qarşı zorakılıq tətbiq edə və ya başqalarını zorakılıqla təhdid edə bilərik. *Məni vursan / mülkümə girsən səni polisə verib tutduracam!* zorakılıq təhdididir və legitimdir. Bu, əxlaqa aid bir məsələdir. Etika deyiləndə isə *insanlar başqalarına nə etməlidir, özlərinə nə edə bilərlər, mənalı həyat üçün nə edilməldir* tipli qeyri-siyasi (zorakılığa əsaslanmayan) suallara verilən cavablar nəzərdə tutulur. Etika əxlaqdan daha genişdir və mütləq şəkildə sosial anlayış deyil, çünki biz başqaları ilə münasibətdə olmasaq (məsələn, meşədə tək yaşasaq) əxlaqdan bəhs etmək mənasız olar, amma etikadan bəhs yenə də mənalı olar. Bir nümunə verim. Əxlaqi sual: Başqalarından zorakılıq təhdidi ilə nə tələb edə bilərəm? Etik sual: Başqalarına və ya özümə mənəvi borcum nədir? Ümid edirəm ikisinin fərqi aydın oldu.

Etik görüşümüzün nə olmasından asılı olmayaraq bizi birləşdirən, razılaşdığımız əxlaq olmalıdır ki, bir cəmiyyətdə normal yaşaya bilək. Əxlaqi məsələdə razılığa gəlmək daha rahatdır – bu zaman biz dövlətin vəzifə və öhdəliklərini, gücünün sərhədlərini müəyyən edirik. Etik məsələlərdə isə razılığa gəlmək çox çətindir, çünki bu zaman biz *mənalı həyat necə olur, insan necə yaşamalıdır* kimi qəliz sualları cavablandırırıq. Kimsə bizim əxlaqi görüşümüzü qəbul edib etik görüşümüzü rədd edə bilər. Məsələn, azərbaycanlıları *dövlət öz vətəndaşını qorumağa borcludur və buna görə də zorakılıq hallarına müdaxilə etməlidir* fikrinə inandırmaq ehtimalımız daha yüksəkdir – qanunlara, elementar ədalət hissinə və ən əsası da minimal dövlət anlayışına istinad edə bilərik. Gəlin buna *elementar əxlaq* deyək. Lakin həmin insanları *əsl müasirlik azad seksdir, evlilikdən kənar cinsi münasibətdə olan qadın pozğun deyil, qız uşağı atasının sözünə qulaq asmalı deyil* kimi fikirlərə inandırmaq ehtimalımız sıfıra yaxındır. Gəlin buna da *substantiv etika* deyək.

Kimsə yuxarıdakı elementar əxlaqı qəbul edib substantiv etikanı rədd edə bilər. Və burada heç bir problem yoxdur. Məişət zorakılığı ilə mübarizə aparan aktivistin substantiv etikanı rədd edən şəxs ilə prinsip etibarilə bir problemi olmamalıdır. Aktivistin iddiası budur: *substantiv etik görüşünün nə olmasından asılı olmayaraq elementar əxlaqı qəbul et*. Buna görə də *bakirə olmayan qız uşağı pozğundur* deyən adama *yox, pozğun deyil* demək əvəzinə, *pozğun olsa da, olmasa da dövlət və ya bir başqası bakirə olmayan qız uşağına müdaxilə edə, ona zorakılıq tətbiq edə və ya onu zorakılıqla hədələyə bilməz, çünki …* demək lazımdır. Nöqtələrin yerini isə qanunlara, elementar ədalət hissinə və minimal anlayışına istinad edərək doldurmaq olar. Qısası, insanlara izah etmək lazımdır ki, onlar öz substantiv etik görüşlərini məcburi şəkildə başqalarına qəbul elətdirə və ya həmin görüşləri qəbul etməyənləri cəzalandıra bilməzlər. Necə ki biz öz dini inancımızı, geyim, yemək və idman zövqlərimizi (bunlar hamısı substantiv etikanın tərkib hissəsidir) başqalarına məcbur

qəbul etdirə bilmərik, eləcə də digər substantiv etik görüşlərimizi qəbul etməyənləri cəzalandıra bilmərik. Vəssalam. İmkan verin insanlar nəyə istəyir inansın, onların elementar əxlaqı qəbul etməsi kifayətdir.

Deyə bilərsiniz ki, yuxarıdakı substantiv etik görüşü qəbul etməyənlər elementar əxlaqı da qəbul etməyəcəklər. Bəzən edəcəklər, bəzən yox, bunu danmıram. İddiam budur: insanları bu iki məsələnin fərqli olduğuna və elementar əxlaqı qəbul etmələrinin vacib olduğuna inandırmaq daha asandır. Mühafizəkar bir adamın *bakirə olmayan qız uşağı pozğundur, amma ona qarşı zorakılıq etmək olmaz, qoy bizlərdən iraq olsun, nə qələt edir-etsin* demək ehtimalı daha çoxdur; söhbət edərək həmin adamı bu fikrə – elementar əxlaqa inandırmaq daha asandır. Lakin eyni adama *bakirə olmayan qız pozğun deyil* dedizdirmək demək olar mümkün deyil.

Aktivizmdə bizə ilk olaraq nə lazımdır? Zorakılıq hallarının azaldılması və dövlətin bu məsələyə müdaxilə edib öz öhdəliyini yerinə yetirməsi. Bu amal uğrunda bizim (aktivistlərin) substantiv etik görüşümüzü qəbul etməyən insanlarla mədəni müstəvidə söz güləşdirmək əvəzinə, onlarla müzakirəni siyasi müstəvidə aparmaq lazımdır. Unutmayaq ki, bizim onlardan nə qədər zəhləmiz gedirsə, onların da bizdən ən azı bir o qədər zəhləsi gedir. Biz (aktivistlər və ya yuxarıdakı substantiv etikanı qəbul edənlər) onların substantiv etikasını nə qədər iyrənc görürüksə, onlar da bizim substantiv etikamızı ən azı bir o qədər iyrənc görür. İki fərqli məsələni bir-birininə qarışdırmayaq və müzakirələrimizi siyasi müstəvidə aparaq.

[i] Məqalə ilk dəfə rasional.org bloqunda dərc edilib.